# 2013-cü ilin 9 ayının yekunları və vəzifələr

***Oktyabrın 21-də rayon icra hakimiyyətinin iclas salonunda 2013-cü ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş müşavirə keçirilmişdir. Müşavirədə Milli Məclisin deputatı, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov iştirak etmişdir.***

***Müşavirəyə idarə, müəssisə və təşkilat rəhbərləri, şəhər, qəsəbə və kənd inzibati ərazi nümayəndələri dəvət olunmuşlar.***

***Müşavirəni rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev açmış və gündəlikdə duran məsələni elan etmişdir: «Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası ilə əlaqədar həmin dövrdə Qəbələ rayonunda görülmüş işlər barədə».***





***Məsələ ilə əlaqədar rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev geniş məruzə etmişdir (məruzə dərc olunur).***

***Məruzə ətrafında 10 saylı Ərazi Vergilər İdarəsinin rəisi Şahismayıl Bayramov, Dövlət Sosial Müdafiə Fondu Qəbələ Rayon Şöbəsinin müdiri Ariz Məmmədov və başqaları çıxış etmişlər.***

***Müşavirədə Milli Məclisin deputatı, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov çıxış edərək ilin ötən dövrü ərzində respublikamızda görülən sosoial-iqtisadi inkişaf barədə danışmış, həmçinin 9 ay ərzində Qəbələdə görülən işlərə və bu günlərdə keçirilən prezident seçkilərinə öz münasibətini bildirmişdir.***

***İclasın sonunda müzakirə edilən məsələ ilə əlaqədar müvafiq qərar qəbul olunmuşdur.***

**Nadir ATAKİŞİYEV.**

**Fotolar S. Umuyevindir.**

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2013-cü ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat

## MƏRUZƏSİ

**Hörmətli yığıncaq iştirakçıları!**

**Hörmətli xanımlar və cənablar!**

Oktyabr ayının 9-da müstəqil Azərbaycanımızın tarixində çox böyük siyasi hadisə—ölkədə prezident seçkiləri keçirildi. Çox yüksək demokratik şəraitdə keçirilən seçkilərdə müdrik xalqımız növbəti dəfə Heydər Əliyev siyasi kursuna, inkişafa, tərəqqiyə, sabitliyə, ölkəmizin daha firavan gələcəyinə səs verdi. Bizim bütün nailiyyətlərimizin təminatçısı, bütün xalqın sevimlisinə çevrilmiş möhtərəm cənab İlham Əliyev növbəti dəfə yüksək səs çoxluğu ilə yenidən ölkə Prezidenti seçildi.

Sizin hamınızı Vətənimizin taleyində çox böyük rolu olacaq bu qələbə münasibətilə ürəkdən təbrik edirəm !

Eyni zamanda icazə verin, hər birinizin adından möhtərəm Prezidentimizi bu böyük qələbə münasibətilə təbrik edim, zati-ailələrinə uzun ömür, cansağlığı, doğma Azərbaycanımızın daha xoş gələcəyi naminə yorulmaz fəaliyyətində yeni-yeni uğurlar arzulayım.

**Hörmətli yığıncaq iştirakçıları!**

Bildiyiniz kimi, oktyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir. Dövlət başçısı həyata keçirilən iqtisadi siyasət nəticəsində bütövlükdə 2013-cü ilin 9 ayında bütün makroiqtisadi göstəricilərin yüksək səviyyədə olduğunu qeyd edib. O bildirib ki, cari ilin ötən dövrü ərzində iqtisadiyyat 5,4 faiz, qeyri-neft sektoru isə 10,4 faiz artıb və bu, dünya miqyasında ən yüksək göstəricidir. İqtisadiyyatın təhlükəsizliyinə böyük önəm verən cənab İlham Əliyev çıxışında demişdir: “Gələcək nəsillər üçün elə güclü iqtisadiyyat qurub qoymalıyıq ki, Azərbaycanın gələcək inkişafı ilə bağlı heç bir problemi olmasın”.

İqtisadiyyatın şaxələnməsinə diqqət çəkən cənab Prezident bildirmişdir ki, kənd təsərrüfatında təxminən 5 faiz, əhalinin pul gəlirlərində 7,6 faiz artım olmuş, infilyasiya isə 2,3 faiz təşkil etmişdir.

Azərbaycan iqtisadiyyatına 17,7 milyard dollar investisiya qoyulmuşdur ki, bunun 10,5 milyard dolları daxili, 7,2 milyard dolları isə xairici sərmayələrdir. Bu dövrdə valyuta ehtiyatları artmışdır və hazırda ehtiyat valyutamız 49,4 milyard dollar təşkil edir.

9 ayda əhalinin sosial problemlərinin həlli istiqamətində mühüm addımlar atılmış, bu sahədə xeyli proqram icra edilmişdir. Regionların inkişafı ilə bağlı bütün hədəflərə nail olunub və bu ilin 9 ayında 90 minə yaxın yeni iş yerləri açılmışdır. İndiyə qədər ölkədə açılan iş yerlərinin sayı isə 1 milyon 200 mini ötür.

“Bizim güclü sosial siyasətimizin təməlində güclü iqtisadi siyasət dayanır. Biz bütün sosial proqramları icra edirik”—deyən İlham Əliyev sosial sahələrdə həyata keçirilən tədbirləri təhlil edərək əmək haqqının və pensiyaların artırıldığını, sovet vaxtından qalan əmanətlərin qaytarıldığını, ümumən sosial proqramların daim diqqət mərkəzində saxlanıldığını, Dünya İqtisadi Forumunun hesabatlarına əsasən, Azərbaycan İqtisadiyyatının rəqabət qabiliyyətliliyinə görə 39-cu yerdə qərarlaşdığını, adambaşına düşən valyuta ehtiyatları üzrə Azərbaycan dünya miqyasında ön sıralarda olduğunu qeyd etmişdir.

Ötən 9 ayda enerji sahəsində mühüm uğurların qazanıldığını, Transadriatik Qaz Kəməri layihəsinə start verildiyini deyən dövlət başçısı Azərbaycanın enerji ilə bağlı siyasətinin dünya üçün çox əhəmiyyətli olduğunu vurğulamışdır.

Dövlət başçısı biznes mühitinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldığını, dövlət tərəfindən sahibkarlara böyük güzəştlərlə kreditlər ayrıldığını, iri fermer təsərrüfatlarının fəaliyyəti üçün öhdəliklər götürüldüyünü, suvarma ilə bağlı meliorasiya şəbəkələrinin yaradıldığını və bu sahədə görülən bütün işlərin sosial və iqtisadi məsələlərə müsbət təsirini geniş şərh etmişdir.

Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışarkən Prezident cənab İlham Əliyev bildirmişdir ki, münaqişənin həllində hələ ki, ciddi irəliləyişə nail olunmayıb. Bununla belə, Azərbaycan uğurla inkişaf edir, işğalçı Ermənistanda isə sosial-iqtisadi və siyasi böhran getdikcə dərinləşir. Azərbaycanlıların nəinki işğal edilmiş torpaqlarda, hətta öz tarixi torpaqlarında da yaşamaq hüququnun olduğunu bəyan edən cənab İlham Əliyev “Biz o torpaqlara da qayıdacağıq, mütləq qayıdacağıq! Xalqımıza məxsus olan bütün tarixi torpaqlarımızda azərbaycanlılar yaşayacaqlar, yaşamalıdırlar!”—demişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2013-cü ilin 9 ayında Qəbələ rayonunda da işlər uğurla davam etdirilmişdir. Rayonumuzun ictimai həyatında baş verən əsas əlamətdar hadisələr isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü ilin fevral ayının 28-də və avqust ayının 14-də Qəbələyə səfərləri olmuşdur.

Səfər zamanı ölkə başçısı bir çox mühüm sosial və iqtisadi xarakterli obyektlərin açılışında iştirak etmiş, inşaat işləri davam edən tikintilərdə işin gedişi ilə tanış olmuşdur. Görülmüş işlər barədə fikirlərini bildirən ölkə başçısı qarşımıza yeni-yeni vəzifələr qoymuşdur.

Qəbələnin ictimai həyatında baş verən bütün əlamətdar hadisələr hər birimizdə qürur hissi yaradır. Hesabat dövründə Qəbələdə 4 ölkənin prezidentlərinin iştirakı ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısına, Qəbələ V Beynəlxalq Musiqi Festivalına, “MDB-nin mədəniyyət paytaxtları—2013” dövlətlərarası proqramının təntənəli açılışı kimi mərasimə, 11 rayonun iştirakı ilə “Qəbələ mürəbbə festivalı”na, “İbtidai təhsil-yeni baxışlar, təcrübələr və perspektivlər” mövzusunda konfransa, “Gənc xilasedici və yanğınsöndürən” adı altında respublika və beynəlxalq birinciliyinə ev sahibliyi etmişdir.

**(Ardı 3-cü səhifədə).**